Xaqani Ayxan

# AĞACLAR PAYIZDA ÇİÇƏKLƏYƏNDƏ



**Xaqani AYXAN**

# Ağaclar payızda çiçəkləyəndə

# Xaqani AYXAN

# Ağaclar payızda çiçəkləyəndə

**Bakı - "Red N Line" – 2021, 144 səh.**

**Redaktor: Zirəddin Qafarlı**

**Korrektor: Sabir Piriyev**

**Operator: Röya Abışova**

**X 51000000755 (406)**
**127 - 2021**

© Xaqani Ayxan

# ŞEİR – ÜRƏYİN İŞIĞIDIR

İlahi söz-şeir onu daim düşündürür rahat qoymur. Evdə də, metroda da, küçədə də, işdə də şeir onun qolundan tutur, ürəyindəki işığın gücünü artırır.

Şeirlərində kədər də var, sevinc də, ağrı da var, işıq da. Axşamlar yorğunluğunu canındakı şeir "mərəzi" ilə yoxa çıxarır.

Xaqani Ayxanın şeirləri bütün ədəbi dərgilərdə çap olunub. Amma bir kimsə şeirləri barədə fikir söyləməyib. Halbuki, Xaqani Ayxanın yazılarının bu gün bizi narahat edən kütləvi şeir axınına heç bir dəxli yoxdur, nə də o şairlərdəndir ki, istedadı olmaya-olmaya soxulsun, özünü təbliğ eləsin.

Sözü şeirə, şeiri poeziya mənzilinə çatdırmaq, yalnız şairin görə bildiyi, ürəyindən keçirib dilinə, dilindən qələminə, qələmindən də sözə çevirdiyi həqiqətləri yalnız sözə məhrəm adamlar reallaşdıra bilər. Xaqani də bu həqiqətləri oxucuya çatdıra bilir və mən

əminəm ki, bu yolda onu uğurlar gözləyir.

Xaqaninin "Vətən" şeiri bu mövzuda yazılanlardan seçilir. Bu şeirdə təşbihlər təzədir, onları Xaqanidən başqa bir kimsə işlətməyib, - qənaətindəyəm.

Deyirlər qartala oxşayır, amma...
Qurd yemiş yarpağa bənzəyir Vətən!
Naxçıvan aralı, Qarabağ darda,
İncimiş torpağa bənzəyir Vətən!

Çox sorğu-sual var dilimiz üstə,
Kəsilir başımız dinimiz üstə,
Araz da "dağ olub" sinəmiz üstə,
Susamış dodağa bənzəyir Vətən!

El eldən ayrılıb düşüb aralı,
Biri can üstədir, biri yaralı,
Yıxıb evimizi, yıxıb "haralı?"
Kərkükdə irağa bənzəyir Vətən!

Zamanın üstündə çəkildin dara,
Başın hara düşdü, bədənin hara,
Bölünüb dörd yerə, oldun dörd para,
Qırılmış çarmıxa bənzəyir Vətən!

Bu şeirdə Vətənə - böyük Azərbaycana, onun keçmişinə və bu gününə kədərli bir baxış var. Mədh yoxdu, tərənnüm yoxdur. Bununla razılaşmaq olarmı? Sovet dönəmində yazılsaydı, bu şeirə görə müəllifin başı bəlalar çəkərdi. Bu, Vətəni – tarixən mövcud ərazilərimizi paralanmış görən bir ürəyin harayıdır.

Xaqaninin şeirlərində bir nostalji ovqat aşılayan, sanki qəmli bir görünüş verən də elə bu düşüncələrdir. Əgər o "qanlı-qanlı dizlərimin quruduğu ocaq hey!" deyirsə, yenə böyük Vətənin tarixinə işarə edir.

Xaqani Ayxanın şeirlərindən bir fərdin ürək çarpıntıları əks olunur və onun şeirləri elə ürəklə söhbətlərini xatırladır. Daha doğrusu, ürəyindən keçənləri dilinə gətirir, heç

nəyi gizlətmir. Şairin fərdi yaşantıları cəmiyyətdən, yaşadığı mühitdən, gerçəkliyin onda doğurduğu müxtəlif təsirlərdən gəlir.

Bu günləri yaşamıram,
Bu günlər yaşımdan gedir.
Bu yükləri daşımıram,
Baş alıb başımdan gedir!

Bu bahar bir günə çatıb,
Bu yay bircə gecə yatıb,
Bu payızı qış aldadıb,
Bu payız qışımdan gedir!

Bir gün hamı od tutacaq,
Bir gün qiyamət qopacaq,
Daşlar nəğmə oxuyacaq,
Çiçəyim daşımdan gedir!

Bir insanın fərdi yaşantılarını, həyatla, gerçəkliklə nigarançılığını, "Boğuluram", "Tapmadım", "Gedir" və s. bu kimi qəbildən

olan şeirlərindəki narahatlığını başa düşürük.

Ancaq bütün bunlar insanın yaşamaq yanğısından, səadət axtarışlarından irəli gəlir. O, düşüncə adamıdır, nədən söz açırsa, hər şeyə şübhə, güman prizmasından yanaşır. İstəyir ki, çox şeyi özü üçün aydınlaşdıra bilsin. Deyir ki, "sındırın güzgüləri, həqiqəti gizlədir", çünki "işıqdan qaranlığa, qaranlıqdan işığa, görünən həqiqətin, güzgüləri görünməz".

Deyir ki, "çəkdiyim siqaret deyil, tüstülənən dərd kimidir".

Çəkdiyim siqaret deyil,
Tüstülənən dərd kimidir
Çıxan tüstü-oğulları,
Külü qalmış yurd kimidir!..

Adi bir yataqxana həyatı da onun şeirində məna kəsb edir.

Oyandım bu ömrün pıçıltısına,
Bu nə səs-səmirdir yataqxanada.
Bu uçuq divarlar, bu lal divarlar,
Ömrümü gəmirdi yataqxanada...

Bir ev arzu kimi çəkildi göyə,
Yedilər haqqımı, yedilər niyə,
Gözlərim yol çəkir ümidsizliyə,
Ürəyim əsirdir yataqxanada.

Acı bağırsaqtək uzanır ömür,
Batan bir arzunu çıxan ha görmür,
Siqaret kötüyün sümürhasümür,
Əllərim kömürdür yataqxanada.

Uçub dəhlizində yox olur ətir,
Havası kiflənib gözümü didir,
İlahi, bu ömrü kirayə götür,
Bu da bir ömürdür yataqxanada.

Reallıq budur. Yəni Xaqani Ayxanın yaşadığı reallıq… Onun şeirlərindəki minor

motivlər də elə bu reallıqlardan gəlir.

Ancaq bütün bunlara görə biz Xaqanini qınaya bilmərik. O, yaşadığı hisslərə xəyanət edə bilməz. Xaqaninin şair duyumu çox həssasdır, duymadan yazmaq ona yaddır. O, həyata zamanın çərçivəsindən, olaylarından baxır. Hər şeyin mahiyyətinə varmaq istəyir.

İlahi qəlbini açır,
Bir qətrə insana dönür.
Yaxınlar uzağa qaçır,
Uzaqlar yaxına dönür!

Daşın dərdin kəsək çəkir,
Uçuq divar, külək çəkir,
Adam var dərdin tək çəkir,
Əyilib kamana dönür!

Yanan çırağın söndümü,
Çıxıb gedənin döndümü?
Şumladıqca bu ömrümü,
Əllərim kotana dönür!

İnsanlar mələk doğulur,
İblisə uyub boğulur,
Bəndədən tanrılıq umur,
Sonunda şamana dönür!

Bu şeirdə Xaqaninin ÖMÜR haqqında düşüncələri əks olunur və onun digər şeirlərində də İnsan-Zaman-Tale paralelləri gedir. Buna misal olaraq "Əlim", "Qara sevda", "Şükür" və s. şeirlərinin adını çəkə bilərəm. Əşyaları, nəsnələri, predmetləri mənalandırmaq, şeirdə onların "rəsmini" çəkmək, metaforik cizgilər yaratmaq – Xaqani Ayxan müasir şeirin bu "repertuar"ına da sadiq qalır. Belədirsə, daşın da dili ola bilər, daşın gözlərindən bir quşun qanı da dama bilər və s.

Daşın dili var, asan,
Danışdırsan danışar,
Götürüb tumarlasan,
Adama da yovuşar!

Gileylənər əlindən
Sənin şər əməlindən,
Bir daşın gözlərindən,
Bir quşun qanı damar!

Əllərinlə qazılan,
Yuxu kimi yozulan,
Günahların yazılan,
Bir daş göydə darıxar!

Saxladım gözüm üstə,
Oxşadım dizim üstə,
Ağlayıb sözüm üstə,
Bir daşın canı çıxar!

Xaqani Ayxan bugünkü çoxsaylı müəlliflər arasında hər halda seçilir. Amma özü də yaxşı bilir ki, şairlik hardasa, özünə divan tutmaqdır, hədsiz məşəqqətlərə dözməkdir, axtarışlar aparmaqdır. Mən bu yolda ona uğurlar arzulayıram.

***filologiya elmləri doktoru:***
***VAQİF YUSİFLİ***

# Ulu ocaq

Körpə-körpə közlərimin
sovrulduğu ocaq, hey!
Qanlı-qanlı dizlərimin
quruduğu ocaq, hey!
Odlu-odlu sözlərimin
qovrulduğu ocaq, hey!
Altındakı izlərimin
qarıdığı ocaq, hey!

Dərdə qatlana-qatlana
bu ildən o ilə keçdik.
Səndən atlana-atlana
dilim-dilim alov içdik.
Kösöv köksümə saplana,
nəyi əkdik, nəyi biçdik?
Yenə igidlər toplana,
yarıdığı ocaq, hey!

İstisinə yarımadıq
tüstüsünə kor olanda,
Niyə, nədən aramadıq
yerimizdə qor olanda?!..
Budaqların daramadıq
ağacların dar olanda,
Tanrı qutsal soramadıq,
aradığı ocaq, hey!..

Hər təpənin təpəsində
Yurda mayak ocaq çatdıq,
Oğuzların nərəsində
Qılınc vurub, oxlar atdıq,
Qalaların xas qalası
Ərk qalası, Qız qalası
Oğuzların, Xəzərilərin
Qaladığı ocaq heyyy!..

1990

# Vətən

Deyirlər qartala oxşayır, amma...
Qurd yemiş yarpağa bənzəyir Vətən!
Naxçıvan aralı, Qarabağ darda,
İncimiş torpağa bənzəyir Vətən!

Çox sorğu-sualvar dilimiz üstə,
Kəsilir başımız dinimiz üstə,
Araz da "dağ olub" sinəmiz üstə,
Susamış dodağa bənzəyir Vətən!

El-eldən ayrılıb düşüb aralı,
Biri can üstədir, biri yaralı,
Yıxıb evimizi, yıxıb "haralı?",
Kərkükdə irağa bənzəyir Vətən!

Zamanın üstündə çəkildin dara,
Başın hara düşdü, bədənin hara,
Bölünüb dörd yerə, oldun dörd para,
Qırılmış çarmıxa bənzəyir Vətən?!..

# Şuşa

Başının üstündə nəm çəkən bulud
Suyunda gözümün suları, Şuşa!
Qəhr olsun zəmanə, qəhərini ud
Göynəyir qəlbimin qübarı, Şuşa!

Səndə əsrlərin yanğılı səsi,
Ovunmaz Seyidin, Xanın naləsi,
Böyük Üzeyirin ölməz həvəsi,
Qaldı Natəvanın məzarı, Şuşa!

Lalələr göz açıb üzə güləndə,
Sənsiz yaz gələndə, bahar gələndə,
Düşmən qəh-qəh çəkib bizə güləndə,
Gələrmi könlümün baharı, Şuşa?!

Çiçəklər çiçəyi- xarıbülbülü,
Qoydu qəm içində yarı bülbülü...
Hicran atəşində sarı bülbülün
Düşməni kəsibdir yolları, Şuşa!

Sən könül mülkünün sultanı oldun,
Qoca Qarabağın tərlanı oldun,
Acı xəyanətin qurbanı oldun,
Tarix unudarmı bunları, Şuşa?!

# Xocalı qırğını

Bu sənin qan yaddaşın,
Bu sənin tarix daşın,
Harda qaldı qardaşın,
Kəsilən zaman başın?!

Baxın, diqqətlə baxın,
Soyqırım tarixinə,
Bu hansı dinə yaxın,
Dünya dinmir xainə?!

Nə qocaya acıyıb,
Nə uşağa baxdılar,
Dişlərini qıcayıb,
Süngülərə taxdılar!

Gəlinləri qul kimi,
Əsir apardı düşmən,
Qırılmış sazın simi,
Mənəm əti çəmçəşən!

... Xocalı eli vardı,
Bir zamanlar burada,
Torpağı qan suvardı,
Kimsə yetmədi dada!..

# Masallı

Qayalar üstündə bitib ağaclar,
Masallı əzəldən bir ayrı nağıl.
Talış dağlarını sarıb qucaqlar,
Burda zirvələrə uzanan hər yol!

Meşələr içində dərin dərələr,
Həzin layla çalır Viləş çayına,
Burda öz ovunu gözlər bərələr,
Qartallar qıy vurar güllə hayına...

Elə bil ürəyi yanır dağların,
Ah çəkir, od tutub yanır gizlicə,
Yanardağ alışıb yanır, bağların
Cənnət məkanında füsünkar gecə...

İstisu dağların isti göz yaşı,
Neçə əsrlərdir axır dayanmır,
Füsünkar mənzərə hər xırda daşı,
Dağların başında duman oyanmır!

Burda bir oba var – Böyük Xocavar,
Cəm-cəm şəhərinin bir parçasıdır,
Burda hər zamanın öz xocası var,
Tarix açılmayan sirr boğçasıdır!

... Hər təpə altında bir igid yatır,
Baba torpağımdır Əmir Türbəsi,
Buranın tarixi qızılbaşladır,
Qədim seyidlərə çatır rişəsi...

# Göyçə

*professor Eldar Qocayevə*

Cilovlayıb qəzəbini, səbrini,
Göyçəlilər dağıldılar Göyçədən!
Tərk eləyib Ələsgərin qəbrini,
Göyçəlilər dağıldılar Göyçədən!

Göyçə gölü baxıb qara bağladı,
Köçənlərin arxasınca ağladı,
Yurd həsrəti ürəkləri dağladı,
Göyçəlilər dağıldılar Göyçədən!

Ağrı dağı nələr gördü, yaşadı,
Köçən elin ağır yükün daşıdı,
Sızıldayan ürəyimin başıdır,
Göyçəlilər dağıldılar Göyçədən!

Elsiz aşıq, dur sazını çal indi,
Havalanıb tellərini yol indi,
Ha baxsan da geri dönmür yol indi,
Göyçəlilər dağıldılar Göyçədən!

Köçkünlərin gözlərindən qəm baxır,
Yağı düşmən tariximə kəm baxır,
İrəvanım "xalsız" qalıb darıxır,
Göyçəlilər dağıldılar Göyçədən!

# Savalan

Savalanın pişvazına,
Azadlıdan keçib getdim.
Çatammadım gül-yazına,
Buzlu sudan içib getdim!

Ərdəbilim xan yer idi,
Təbriz xuraman yer idi,
Könül uçdu, can yeridi,
Ürəyimi açıb getdim!

Ala Qapı – ali qapı,
Qılınc ilə kəsdi topu,
Ağacdan baltanın sapı,
Şirin canı biçib getdim!

Könüllər can atan yerə,
Günəşimiz batan yerə,
Şah İsmasyıl yatan yerə,
Qanad açıb uçub getdim!

***1990***

## Dağlar

Dağlar, sizə könül açan qalmayıb,
Ya qalıb, bu boyda duman içində?!
Talehdən bu boyda qaçan olmayıb
Ya qaçıb qalıbdı güman içində?!

Dağlar, şöhrətinə daralmağım yox,
Zirvəndə günəşlə saralmağım yox,
Daha indən belə vurulmağım yox,
Vurulub qalmışam aman içində!

Nə qədər ah uçur Tanrıya doğru,
Dünya yaranandan bitməyən ağrı,
Nə tütək söyləyər, nə də ki, qarğı,
Qaynayır bu ağrı yaman içində!

Ehtiyac içində batan oğlanın,
Əlləri dizinə çatan oğlanın,
Bir payız günündə yatan oğlanın,
Bir işi qalmayıb zaman içində?!

# O yerlərə gedəcəm

O yerdə ki, möcüzələr yaranmış,
Salxım söyüd kiprik-kiprik dayanmış,
O yerdə ki, könlüm belə daranmış,
Bir gün dönüb o yerlərə gedəcəm!

O yerlərin dağlarında ünüm var,
Yollarında payız vaxtı çənim var,
O yerdə ki, qarşıma gələnim var,
Bir gün dönüb o yerlərə gedəcəm!

O yerdə ki, uşaqlığım boy atmış,
O yerdə ki, körpüləri çay atmış,
O yer məndə neçə duyğu oyatmış,
Bir gün dönüb o yerlərə gedəcəm!

O yer məni yarpaq-yarpaq saraltmış,
O yer məni bu yerlərə ucaltmış,
O yer məni həsrətiylə qocaltmış,
Bir gün dönüb o yerlərə gedəcəm!

***1987***

# Bir ucdan

*İbrahim İlyaslıya*

Dünya qan çanağı, qətl meydanı,
Kəsilir mərdlərin başı bir ucdan.
Haqdan dikələnə haqq yiyə durmur,
Sökülür, dağılır daşı bir ucdan?!

Əcəl aman verə, ömür gözləyə,
Çağıram dünyanı gələ düzlüyə,
Ölüm hökm eləyir ölümsüzlüyə,
Çoxalır dünyanın yaşı bir ucdan!

Hər sözü söz edib, söz qayıranlar,
Hər üzə girməyə üz qayıranlar,
Tanrını görməyə göz qayıranlar,
Siyirib qoparır qaşı bir ucdan!

"Mənə nə?" - deyənlər dolanır gendən,
İnsanlar bic olub, seçilmir cindən,
Şeytanlar söz açıb danışır dindən,
Artır aramızda naşı bir ucdan!

***1990***

# Götürmə məni

Beşikdən sallana-sallana,
baxıb ağına-bozuna,
bu Allah sevgisiylə,
qışda üşüyə-üşüyə,
yayda qızına-qızına,
bir ox kimi
çıxmaq istəyirəm zamandan,
heç əzəldən yox kimi,
çıxmaq istəyirəm oyundan...
İşıq sürəti ilə,
        bu Yerin ətrafına,
fırlana bilsəm əgər,
üç saniyə içində bu nə işdir, İlahi,
burda milyon il keçər?!
Qısılıb zamansızlığın,
            bir yaşıl gecəsinə,
qulaq asa biləydim,
            Peyğəmbərin səsinə!..

Təmizlə ruhumu, təmizlə sözüm,
izlərin içində görünsün izim!
Babamın qırışlı əlləri kimi,
Arazın lilli dilləri kimi,
Mənə dərd verilib özümdən böyük,
Bu dərd bu dünyanın gözündən böyük,
Torpaq, bu dərdlə götürmə məni,
bu dərd hər kəlməmdən, sözümdən böyük,
Torpaq bu dərdlə götürmə məni!..

***1990***

# Tarix

Əgər biz insan olsaydıq,
inqlablar törəməzdi,
Haqqa qənim olmasaydıq,
qoca, uşaq dilənməzdi ...

Əgər biz insan olsaydıq,
bilərdik torpaq olanda,
Kimi aciz, fağır sandıq
haqqın əlindən alanda ...

Əgər bilsən bu dünyada,
tarazlığı pozanların,
Haqqın özü salır yada,
cəzası var azanların ...

Tale ümüdünə qalan,
evsiz olan subaylardı,
Durub Aydan torpaq alan,
bu dünya başına dardı?!

Yaman olur, yaman olur
qulların qalxan qiyamı...
Bu tarixdir yaşa dolur,
təkrar olur, bilir hamı ...

# Moskva gecələri

*əmim Əlipənaha*

Bura Moskvadır, hər üzü soyuq,
Donur kipriklərdə göz yaşları da!
Burda qəriblərin qəlbləri sınıq,
Yad olur ən yaxın yoldaşları da!

Burda məzarlar da qəribdir, qərib,
Don vurub şaxtadan göyün üzü də,
Bu qərib məzarlar doğma istəyir,
Gəlib nəfəsiylə onu isidə!..

Bura Moskvadır, burda ümidlər,
Boy atıb soyuqda cücərə bilmir,
Gəlib qəribliyə düşən igidlər
Burda axıradək bacara bilmir!

Burda rast gələrsən hər addımbaşı,
Ümidin itirmiş qərib izinə,
Axar ürəyinə gözünün yaşı,
Gecələr xaç çəkir Ayın üzünə!..

# İstanbul gözəli

*dostum Elçinə*

Yenə yağış yağır bax, narın-narın,
İsladır ömrünün saf varaqların,
Bu doğma ölkədə qərib bir sevda,
Yandırdı qəlbini yaxaraq  oda!

İstanbul gözəli sənin göz yaşın,
Yağan yağışlarla yağar qurumaz!
İl üstə il gəlib artsa da yaşın,
Bu sevda nə ölməz, nə də qarımaz!

O yaşıl gözlərin ömrün üzündə,
Bir yaşıl yarpaqdı, saralan deyil!
Bu sevgi Ay kimi göyün gözündə,
Dünya dağılsa da qaralan deyil!

Nə yaman qarasan, ey Qara dəniz,
Axıb gözlərinin qarası suya!
De, gedim əlindən mən hara, dəniz,
Bu sevda ovuna, ya da uyuya?!

Yenə yağış yağır, bax, İstanbula,
Yenə yağış yağır Qara dənizə,
Qəlbində nisgilin çıxırsan yola,
O günlər nə qədər uzaqdır bizə?!

# Köçür

*Adil Şirinə*

Qələmi dəryazdır, fikri yaşıl ot,
Alıb qələm ilə özünü biçir.
Laçın dağlarında şirin yuxular,
Əyilib bulağın gözündən içir!

Hərəyə bir qismət yazıb ilahi,
Hər şeyi yerinə düzüb ilahi,
Yaman səbirlisən, dözüb ilahi,
Bu qədər haqsızlıq ömürdən keçir!

Ürəyin ağrıyır yurd itkisinə,
Dağlar haray verər qurdun səsinə,
Qocalan zamanda düşən nəşinə,
Qartallar ən uca zirvəni seçir!

Get-gedə soyuyur yaman havalar,
Gözləyər sahibin qərib yuvalar,
Laçın dağlarından keçən durnalar,
Bir şair könlüdə sizinlə köçür!

# Yoxdur

Sən görən kölgələr günorta itdi,
Axtarma bir ağac kölgəsi yoxdur!
Bu qərib adamlar hayana getdi,
Bir yeri, bir yurdu, ölkəsi yoxdur?!

Kimdir dığırladan daşı aşağı,
Axır gözlərinin yaşı aşağı,
Ağaclar sallanır başı aşağı,
Niyə budağında meyvəsi yoxdur?!

İynəsiz, qayçısız biçibdir dərzi,
Salıbdı lərzəyə bu külli-ərzi,
Bu sirat körpüsü, bu "daş tərəzi",
Bu yolun bir yana döngəsi yoxdur!

Burda iş aşırmaz haram sövdələr,
Vay-şüvən sədası göyləri dələr,
Gözünün önündən qalxsa pərdələr,
Yəqinin bir damcı "bəlkəsi" yoxdur!

# Hicrət

Göy üzündə buludlari ağappaq
Bir yer olsa çıxıb burdan gedərdim!
Çaylar üstə evləri yarpaq-yarpaq
Bir yer olsa çıxıb burdan gedərdim!

Susuzluğun, yorğunluğun səhrası
Ömrümüzə çökür günün qarası,
Dözmək üçün buz basılmış yarası,
Bir yer olsa çıxıb burdan gedərdim!

Bir yer olsun nə səs olsun, nə səmir,
Bir halda ki fələk kömək eləmir,
Könlüm bundan özgə bir şey istəmir,
Bir yer olsa çıxıb burdan gedərdim!

Xəyalların pərakəndə köçündə,
Gün ağlayır gəlib məndən keçəndə,
Gizlənməyə yer qalmayıb içimdə,
Bir yer olsa çıxıb burdan gedərdim!

# Ağlayar dirimiz

*Ramiz Rövşənə*

Bu qışı da salsaq yola,
Bu qarı ərimæz, "atam"!
Qarışıb gözüm sulara,
Ürəyim kiriməz, "atam"!

Çıxaq dağların başına,
Nə qalıb ömrün qışına,
Üstümə gələn qoşuna,
Ayağım yeriməz, "atam"!

Layla çal ki, qəm uyuya,
Düşən çıxmaz bu quyuya,
Divləri gedibdi suya,
Yanıb kəndirimiz, "atam"!

Quş olub çıxsaq da göyə,
Göylər bizə durmaz yiyə,
Kimsə bilmir, sorma niyə,
Ağlayar dirimiz, "atam?! "

# Şükür

Mən ki şükür etdim betər günümə,
Dedim ki bundan da betəri olar.
Nəfsim lövbərini salar könlümə,
Onda neyləyərəm, nə təhri olar!

Mən ki ağlamadım daşlı yolların,
Dizimin qanını içəndə vətən,
Boynuma dolandı aciz qolların,
Qollarım qürbətə köçəndə vətən!

O qürbət içimdə sizlayan acı,
Kəsilən ayağım düşən qolumdur,
Azadlıq eşqinin təkcə əlacı,
Şəhidlik zirvəsi mənim yolumdur!

Mən ki sevinmədim uça biləndə,
Qolların yerinə qoşa qanadla,
Göylər ağuşunu açıb güləndə,
Mən də güləcəyəm bu ülvi adla!

# Uşaqlıq çağım

Uzaqdan baş alıb gəlir yadıma,
Uzaq kəndimizin tozlu yolları.
Babam tərif deyib mənim adıma,
Atardı havaya güclü qolları!

Qaçdığım yolların qara daşları,
Sıyrılmış dizimin qanın qurudub,
Üzmək öyrəndiyim Şarafa arxı,
İstildə adalar məni unudub?!

O xoş xatirələr, qayğısız anlar,
Nə indi, nə sonra bir də dönərmi?!
İlk eşqin havası dolu o bahar,
Dönüb yağışlara göydən enərmi?!

İtdi uşaqlığın o son gecəsi,
Yollandı yollarım şəhərə doğru...
Bitdi uşaqlığın bitdi nəşəsi,
Sevinci dəyişdim kədərə doğru!..

# Həyatın dibində

Cibinin tozunu çırpa-çırpa,
cibsizliyindən utandı,
bezdi, axır ki, usandı...
Bir yolun üstə dayandı,
bu yol cavan bir oğlanı,
əynində nimdaş pencəyi,
yerə çırpılmış kürəyi,
apardığından utandı...
Qazanılan tikə çörək,
hər şeyin sonunda ürək!
Dünyanın toranlığında,
yol gedir qul bazarına!..
Ehtiyacın qollarına
qısıla-qısıla,
alnının qırışlarına
asıla-asıla...
Tüstülədib siqaretin,
minib bir "Volqa"ya getdi,
Ümidin qırıldığı
səbirin daraldığı,
günlərin saraldığı,
dünyanın qapılarına!..

# Yataqxanada

Oyandım bu ömrün pıçıltısına,
Bu nə səs-səmirdir yataqxanada?!.
Bu uçuq divarlar, bu lal divarlar,
Ömrümü gəmirdi yataqxanada...

Bir ev arzu kimi çəkildi göyə,
Yedilər haqqımı, yedilər niyə?!
Gözlərim yol çəkir ümidsizliyə,
Ürəyim əsirdir yataqxanada...

Acı bağırsaq tək uzanır ömür,
Batan bir arzunu çıxan ha görmür...
Siqaret kötüyün sümürhasümür,
Əllərim kömürdür yataqxanada...

Uçub dəhlizində yox olur ətir,
Havası kiflənib gözümü didir,
İlahi, bu ömrü kirayə götür,
Bu da bir ömürdür yataqxanada...

# Yolların başında

*Rəşad Məcidə*

Saralmış yarpaq tək çırpınır ürək,
Payıza qərq olmuş şəhər içində,
Yaşamaq deyilən budurmu məgər,
Bir ömür hıçqırıq qəhər içində...

Yollanır ayağım yolları ağir,
Məni qucaqlayan qolları ağır,
Üzümdən, gözümdən nisgilim yağır,
Bütün şeirlərim kədər içində!..

İnan ki, yaşamır özü şairin,
Qalıb iki dənə gözü şairin,
Nə olsun gözəldir sözü şairin,
Ehtiyac qucaqlar əzər içində!..

Haqqı zəif salan güc imiş demə,
Haqqı istəyənlər gic imiş, - demə,
Həqiqət zəhərdən acıymış demə,
Tapdım həqiqəti zəhər içində!..

Gecələr səhərə çəkəndə ağrı,
Nədir  bu əndişə, nədir bu çağrı,
Gedirəm hər gecə ölümə doğru,
Açılan bir dürlü səhər içində!..

# Qırdım

Qaçdığım qollar üstündə,
Bir dünya gümanı qırdım!
Durduğum yollar üstündə,
Qaranlıq zamanı qırdım!

Çıxdım böyük aydınlığa,
Dalğaları yara-yara,
Gümanlar hara, mən hara,
Əl atıb samanı qırdım!

Könül üzmə çox dərinə,
Nurun dərin sırlərınə,
Qarışanda bir-birinə,
Yaxşını-yamanı qırdım!

Fikirlər bir başa döndü,
Bir yaz günü qışa döndü,
Yaralarım daşa döndü,
Ağrını, amanı qırdım!

# Arxamca atılan su

Arxamca atılan su yerdən çıxır,
Qalxıb havalanır, uçur göylərə.
Arxamca atılan su haradan çıxır,
Qarışır nə qədər sevinc, kədərə,
bir Allah bilir?!

Arxamca atılan suda göz yaşı,
Bu ötən illərin baharı, qışı,
Dağların qoynunda deşib çox daşı,
Nə qədər zamandır bilinmir yaşı,
bir Allah bilir!

Arxamca atılan su buza dönsə,
Ağlaram arxamca göz yaşı dinsə,
Atılan su ilə bir ocaq sönsə,
Bir anda gün sönüb gecəyə çönsə,
bir Allah bilir!

Arxamca atılan bu su ilə mən,
İlahi, nə qədər özümə dönnəm?
Bəlkə bu su ilə boğullam ölləm,
Bəlkə yerimdəcə bir daşa dönnəm,
bir Allah bilir?!

# Gedir

Bu günləri yaşamıram,
Bu günlər yaşımdan gedir.
Bu yükləri daşımıram,
Baş alıb başımdan gedir!

Bu bahar bir günə çatıb,
Bu yay bircə gecə yatıb,
Bu payızı qış aldadıb,
Bu payız qışımdan gedir!

Bir gün hamı od tutacaq,
Bir gün qiyamət qopacaq,
Daşlar nəğmə oxuyacaq,
Çiçəyim daşımdan gedir!

Bağlandı açıq qapılar,
Hər sözə bir söz tapılar,
Başa düşən az tapılar,
Ürəyim huşumdan gedir!

# Bir yol vardı

*Əlisəmid Kürə*

Bir "Yol" qaldı söz içində,
O gündən yadigar kimi.
Bir yol keçdim gəncliyimdə,
Qayıtmaz o bahar kimi...

Ömürdən uzundur o "Yol",
"Ağ Yol"a uzandı o yol,
Zirvədə dayandı o Yol,
Təzə, təmizdir qar kimi...

O yol bizi çəkdi dara,
Durna tək düzdü qatara,
Dumandan pərdə yollara,
Yoxa çıxdı dağlar kimi...

Küləklərin qabağında,
Qaldın yolun sorağında,
Dadı qaldı dodağında,
Dağıldı getdi nar kimi...

# Dönür

İlahi qəlbini açır,
Bir qətrə insana dönür.
Yaxınlar uzağa qaçır,
Uzaqlar yaxına dönür!

Daşın dərdin kəsək çəkir,
Uçuq divar, külək çəkir,
Adam var dərdin tək çəkir,
Əyilib kamana dönür!

Yanan çırağın söndümü,
Çıxıb gedənin döndümü?
Şumladıqca bu ömrümü,
Əllərim kotana dönür!

İnsanlar mələk doğulur,
İblisə uyub boğulur,
Bəndədən tanrılıq umur,
Sonunda şamana dönür!

# Hər gün

Hər gün çıxıb gedirəm,
Bu dünyanın üzündən,
Hər gün bir azca düşür,
Qoca dünya gözümdən...

Dərdim başıma çıxır,
Başımda da darıxır,
Görürsənmi qan axır,
Yaralanmış dizimdən...

Bu uzanan yolların,
Bu ağrıyan qolların,
Bağlanan qapıların,
Boğuluram tozundan...

Hər gün daş kimi ağır,
Üstümə bir yük yığır,
Hər gün qalıbdır sağır,
Ayrı düşüb izimdən...

# Olmadı

*Sərraf Şiruyəyə*

Üzü dönük dostlarla bir,
Düşmənimiz mərd olmadı.
Allah bizə verdi səbir,
Kasıbçılıq dərd olmadı...

Yolumdan yığanda daşı,
Çoxunun çatıldı qaşı,
Allahın mənlə nə işi,
Dua etdim vird olmadı...

Mənəm "Göyçə gülü" solan,
Xain qonşu əfi ilan,
Babalardan miras qalan,
Nəvələrə yurd olmadı...

Tər içində odun yardıq,
Ustad, alovsuz yanardıq,
Nərd olanda zər axtardıq,
Zər olanda nərd olmadı...

# Olsada

Məni yollar yormadı,
Eniş- yoxuş olsada!
Bu yollarda arzular,
Ürəyimdə qalsada...

Toplamışdım səninçün,
Naz eylə, sevin öyün,
Sənə verdiyim gülün
Ətri qaçıb solsada..

Bilmədin sevgi nədir,
Hər sözün bəhanədir.
Ürəyimin həsrəti,
Gözlərimə dolsada...

Anlamadın bir öyüd,
Ağlama, dön qayıt get,
Arxanca salxım söyüd,
Saçlarını yolsada..

# Yıxılır

Yazda çiçəkləyən ağac,
Payızda bardan yıxılır!
Qış günündə ağırlaşıb,
Budaqlar qardan yıxılır!

Kimi sözü tuta bilmir,
Kimi sözü uda bilmir,
Kimi gecə yata bilmir,
Yuxuda hərdən yıxılır?!

Kim badalaq vurdu bizə,
Kim tələni qurdu bizə?!
Düşən düşüb bəxtimizə,
Balıqlar tordan yıxılır!

Kimi sözündən sürüşür,
Kimi sözdən şərə düşür ,
Çabalayıb dara düşür,
Kimi də dardan yıxılır!

# Darıxdım

Düşdü aralığa fəsillər, aylar,
Qəlbimin mizrabı dindi, darıxdım!
Bulandı, duruldu, çağladı çaylar,
Səbrim səbatından endi, darıxdım!

Çıxdı qabağıma o dərə, bu dağ,
Küləklər ətrindən gətirdi soraq,
Bu necə duyğudu, yuxulu-oyaq,
Gördü ki, gördüyüm çindi, darıxdım!

Ağlayan kəslərə verdim təsəlli,
Dedim ki, dünyanı tutma min əlli,
Bir şeyin ki, sonu-əvəlli bəlli,
Ruhum səmalara sindi, darıxdım!

Xətt çəkdim üstündən gör bir nələrin,
Xəyallar möhtəşəm, duyğular dərin,
İllərin dalından xatirələrin,
Düşübdü yadıma indi, darıxdım!..

# Yuxu

Bu nə əcayib yuxudur
Oyanırsan tər içində,
Bu nə insan, bu nə zaman,
Bu nə yerdir, yer içində?!

Ölən günləri yaşasan,
Ölən dərdləri daşısan,
Elə bil ki, baş daşısan,
Uyuyur bir gor içində!

Ayağın yoxsa qaçmağa,
Qanadın yoxsa uçmağa,
Çalışma sirrin açmağa,
Özün sirrsən sirr içində!

Bu dünyanı hörə-hörə,
Bunun sonun görə-görə,
Fürsəti vermisən şərə,
Hörümçəksən tor içində!

# Çəkdiyim

Çəkdiyim siqaret deyil,
Tüstülənən dərd kimidir...
Çıxan tüstü-oğulları,
Külü qalmış yurd kimidir...

Yol üstündə "çolaq" görən,
Atından düşüb bir kərən,
Aldanıb atını verən,
Sızıldayan mərd kimidir...

Kimdir qaçan, kimdir söyən,
Ayaq saxla ölüb yiyən,
Ac qalanda ətin yeyən,
Yalquzaqlar qurd kimidir...

Zəri atıb "şeş-beş" güdən,
Xəbərin varmı "yek-düdən"?!
Bu dünyayla marsa gedən,
Oynadığım nərd kimidir!..

***2009***

# Vaxtımız yox

Tələsirik duraq gedək,
Düşünməyə vaxtımız yox!
Hava soyuq, hava sazaq,
Üşüməyə vaxtımız yox!

Qaça-qaça çıxaq yola,
Baxaq sağa, baxaq sola,
Görək kim qalacaq dala,
Yaşamağa vaxtımız yox!

Hara qaçaq, niyə qaçaq,
Qəlbimizi kimə açaq,
Ümid sınıq qucaq-qucaq,
Daşımağa vaxtımız yox!

Kələfin dolaşıb, dünya,
İşlərin qarışıb, dünya,
Sifətin qırışıb, dünya,
Aşımağa vaxtımız yox!

Dağdan ağırdır daşımız,
Daşı deşər göz yaşımız,
Havalanıbdır başımız,
Qaşımağa vaxtımız yox!

# Boğuluram

Boğuluram, boğuluram,
torpaq udur yağış kimi,
boğuluram, boğuluram...
Səsim çıxmır qamış kimi,
boğuluram, boğuluram...

Əlim cibimdə boğulur,
cibim dibində boğulur...
Hava hanı, hava yoxdur,
dilim şişir, dilim-dilim,

Boğuluram bu son ahda,
boğulur gözümdə yaşım,
ümidim qalan sabahda,
sallanır yuxarı başım...

Boğuluram, boğuluram,
Səsim içimdə boğulur,
Boğuluram, boğuluram,
heyim qıçımda boğulur...

Boğuluram və çıxıram,
...çıxıram göyün üzünə,
Boğulmasam çıxammazdım,
düşdüyüm sözün izinə...

# Şikəst quş

Qanadların qırıq-qırıq,
Daha uçan deyilsən!
Bu bir tale, bu bir qınaq,
Bundan qaçan deyilsən!

Göylər gözündə yaşayar,
Küləklər səndən danışar,
Dərdin dərdlərə qarışar,
Bir ayrı can deyilsən!

Ötən günlərə əl çatmaz,
Gecələr gözlərin yatmaz,
Heç nə qəlbini ovutmaz,
Könül açan deyilsən!

Quş olmaqdan bezdin yoxsa,
Ümidini üzdün yoxsa,
Gizlənirsən qorxa-qorxa,
Sən ki, siçan deyilsən?!

# Nağıl

Mən ipi kəsilmiş Məlikməmmədəm,
Yansam da bir kimsə çıxarmaz məni.
Bir işıq ucu yox, bir yana gedəm,
Bir simurq quşu da aparmaz məni!

Atın qabağında ətə bax, ətə,
İtin qabağında ota bax, ota,
Ümidim sac üstə qovrulur oda,
Təndirin közündən qoparmaz məni!

Divləri can verib şüşədə quşa,
Burda neçə igid dönübdür daşa,
Açıq qapıları bağlaya, çaşa,
Min il axtarsa da tapammaz məni!

Mən ipi kəsilmiş Məlikməmmədəm,
Bir işıq yolu yox, bir yana gedəm,
Günüm qara oldu, qara həsəddən,
Dərdiş sirdaşlarım axtarmaz məni!

# Dua nədir

Kim mənə söyləyər görüm,
"Üç daş" nədir, "beş daş" nədir?!
Əlin, gözün, qıçın varsa,
Yoldaş nədir, qardaş nədir?!

Bu dünya başına darsa,
Bir gün səni məndən sorsa,
Söyləməyə qəlbin varsa,
De görüm bəs sirdaş nədir?!

Əhdi yalan, eşqi yalan,
Kobudluqdan çoxdur sınan,
Soyuq ürəklərdə olan,
Görünməyən bu qış nədir?!

Yıxılanın tut qolundan,
İncimə aciz qulundan,
Çıxma Allahın yolundan,
Dua nədir, qarğış nədir?!

# Biri yox

Göy üzündə iki damcı,
Biri düşdü, biri yox!
Biri tapdı işıq ucu,
Biri uçdu, biri yox!

Bu zülmət adamı udur,
Bu zülmətdə bu nə sudur?!
Bu ki, dirilik suyudur,
Biri içdi, biri yox!..

Baxıb suya, baxıb göyə,
"Keçən haqqa çatar" - deyə,
Atıldı çayı keçməyə,
Biri keçdi, biri yox!

Zaman zamana yığılar,
Məkan məkandan çıxar,
Bu dünyada iki şey var,
Biri puçdur, biri yox!

# Şairlər ölmür

*M.Müşfiqin əziz xatirəsinə*

Bu yaşda ölmək olmaz,
Hansı yaşda olur ki?!
Dərin yatan ayılmaz,
Can yuxudan doyur ki...

Oyatdılar yatanı,
Oyatmaqdan nə fayda?!
Yuxulara batanın,
Yarısı qaldı o tayda!..

Dərin-dərin işlərin,
Açılmayan səhərin,
Ağrımayan dişlərin,
Acısı var bu boyda!..

Nə yaşına baxdılar,
Nə başına baxdılar,
Ağlayınca sıxdılar,
Ürəyini bu sayda!

Gözləri dolan ömür,
Yarıda qalan ömür,
Axı şairlər ölmür,
Barı bir bunu duy da!!!

# Daşın dili var

Daşın dili var, asan,
Danışdırsan danışar!..
Götürüb tumarlasan,
Adama da yovuşar!..

Gileylənər əlindən,
Sənin şər əməlindən,
Bir daşın gözlərindən,
Bir quşun qanı damar!

Əllərinlə qazılan,
Yuxu kimi yozulan,
Günahların yazılan,
Bir daş göydə darıxar!

Saxladım gözüm üstə,
Oxşadım dizim üstə,
Ağlayıb sözüm üstə,
Bir daşın canı çıxar!

***2009***

# Sökə bilim

Bir daş göstərin mənə,
Bu gülü əkə bilim,
Bir işıqlı tərəfə,
Bəxtimi çəkə bilim!

Yox əhdi-etibarı,
Qəlbi daş adamları,
Kələ-kötür yollara,
Aparıb tökə bilim!

Bu dünyanın üzü sərt,
Dərd deyil ki, ölən dərd,
Mənə daş dili öyrət,
Evimi tikə bilim!

Söz verib aldadanın,
Sözü ucuz tutanın,
İki üzlü adamın,
Üzünü sökə bilim!

# Sən bir sözsən

*Rəsul Rzaya*

Tikanlıqda nəğmə deyib,
Söz bağında güllər əkdin,
Şəbi-hicran ayaqlayıb,
Bu dünyada nələr çəkdin!

İl nə çəkdi gündən soruş,
Həsrət vüsalla bitəndə,
Danış ustad, bizə danış
Sönməyən atəş sinəndə...

Sözlərində çiçək ətri,
Baharın təravəti var,
Nəğmən dillərdə əzbərdi,
Cəh-cəh vurub oxur quşlar!

Sözün var ki, ildırımdı,
Şaxıyacaq zaman- zaman,
Çəkilmiş sim tək tarımdı,
Mizrabından istər aman!

Səni bahar gətirmişdi,
Bahar da alıb apardı,
Söz bağında bitirmişdi,
Sevərək dərib qopardı..

Min-min çalarlı sözünlə,
Rəngin var göy qurşağında,
Sən bir sözsən göy üzündə,
Əbədiyyət işığında!...

# Danışan adam

Gedir öz-özüylə danışan adam,
Gedir, öz-özüylə barışa bilmir,
Dünyanın yükünü daşıyan adam,
Hara getdiyini soruşa bilmir!

Yığıb gözlərinə yaşı aparır,
Qəlbində bir dünya qışı aparır,
Külək bərk əsəndə quşu aparır,
Qanadı küləklə yarışa bilmir!

Bir uzaq işıq da qızdırar onu,
Yolun uzaqlığı bezdirər onu,
Küləklər yollarda azdırar onu,
Dərdini küləyə danışa bilmir!

...Gedir öz-özüylə danışan adam,
Bəxtinə düşənlə barışan adam ,
Başı söhbətinə qarışan adam,
Dünyanın işinə qarışa bilmir...

# Adam

*Salam Sarvana*

Dərd gəlib ürəyə qonaq olanda,
Bəzən öz dərdini unudan adam!
Dərdi yola salıb gözü dolanda ,
Tənha ürəyinə qayıdan adam!

Fikir əl götürməz harada olsan,
Üz tutub sağalan yarada olsan,
Bu da bir naxışdır qara da olsa,
Yetim bir kədəri ovudan adam!

Ürək od alnda söz dilə çatıb,
Bəzən baxışında göz dilə çatıb.
Hər kişi dilinin altında yatıb,
Diliylə özünü tanıdan adam!

***2009***

# Bayraq

Qaldırdığın bu bayrağın,
Vətən üçün öl altında,
Külək sovurdu qalmadı,
Bircə közün kül altında!

Gül açdı güllər üstünə,
Uzandı əllər üstünə,
Töküldü illər üstünə,
Qaldın neçə il altında!

Dörd yol ayrıcında otur,
Hər gedən bir yoldan batır,
Tanrının hikməti yatır,
Düzəltdiyi gil altında!

Söz qanadlı kəhərim var,
Açılası səhərim var,
Bircə damcı zəhərim var,
Ölmək üçün dil altında!

# Aparır

Qaşıq-qaşıq yediyimiz,
Qana dönür, tər aparır!
Kimdir udan, kim uduzan,
Oyunçu, ya zər aparır?!

Dayan, bir an saxla ayaq,
Səssizlikdən batır qulaq.
Hər saralıb düşən yarpaq,
Özündə bir sirr aparır!

Yaman qurub oyun quran,
Yoxmu buna yiyə duran,
Bu nə sirdir gedir karvan,
Sariban ya nər aparır?!

Budur dünyanın işləri,
Dəyişdirər yerişləri,
Dağdan ağır kişiləri,
Kəfən bükür, gor aparır!

# Kimi

Yarpaqlar ağacda dara çəkilib,
Qırılıb düşəcək boğulan kimi!
Hər bir şey əslinə dönüb gələcək,
Hər şey alt-üst olub dağılan kimi!

Baxışım bir məktub sevən qadına,
Bir zaman xatırlar salar yadına,
Göylərdə ümid yox quş qanadına,
Düşər o da yerə yığılan kimi!

Kimsə döndərəmməz çərxin fələyin,
Yuxusu çin çıxar əsən küləyin,
Sübhün şəfəqində gülün-çiçəyin,
Üstünə şeh düşər doğulan kimii!

Bu dünya yozumsuz əcəb yuxudur,
Gözəl görünsə də ətri yoxuydu,
Başımın üstündən qara buludu,
Küləklər apardı sağılan kimi!

# Gördüklərim

Yatsam yuxuma girməzdi,
Bu dünyada gördüklərim.
Yoluma daş-kəsək gəzdi,
Əl tutub, üz verdiklərim!

Durub kənardan baxdılar,
Yaxınlaşmağa qorxdular,
Məndən "ağıllı" çıxdılar,
Çırpıb yerə sərdiklərim!

İnsan ayağı dəyməyən,
Suyundan dişim göynəyən,
Bu yer ki, var gəlib göydən,
Solmaz güldür dərdiklərim!

Yaman günə, yaman kökə,
Saldı məni çəkə-çəkə,
Sözdən qala tikə-tikə,
Bu divara hördüklərim!

# Balaca qadın

Götürüb boynuna böyük bir yükü,
Yolu süpürürsən, balaca qadın.
Bu sənin bəxtindir öz qismətinə,
Niyə tüpürürsən, balaca qadın!

Nə qədər süpürsən, bu yolun tozu,
Yenə çiynindədir, çiynində sənin,
Donub gözlərində illərin buzu,
Bir təzə görmədim əynində sənin!

Nə oğul yarıtdı, nə də qız səni,
Çəkdin öz yükünü öz boyunla sən,
Nə bahar güldürdü, nə də yaz səni,
Qaldın dünya adlı bu oyunla sən!

Süpür ömrünü də təmizlə, bəlkə,
Ömrünə bir qəfil qonaq gələcək?!..
Yollarda yağışla tozlar çəkilsə,
Gözündə buzlayan arzun güləcək!..

# Tapmadın

Əl atdın göy üzünə,
Tutmağa yer tapmadın.
Qüssədə batan adam,
Batmağa yer tapmadın?!

Baş götürüb qaçanda,
Hey qalmadı qıçında,
Başından baş açanda,
Qatmağa yer tapmadın?!

Başını qatan adam,
Özünə çatan adam,
Yuxuda yatan adam,
Yatmağa yer tapmadın?!

Tullayar bizə sarı,
Ömrün tozlu yolları,
Sınıb qəlbinin tarı,
Atmağa yer tapmadın?!

# İnsan

Üzüləndə əli yerdən,
Öz içinə çökür insan.
Ayılır bir gün yuxudan,
Öz içini sökür insan!

Öz əliylə, ayağıyla,
Öz gözüylə, qulağıyla,
Öz diliylə, dodağıyla,
Öz içinə köçür insan!

Özgə bir ömür yaşasan,
Çətin düşərsən başa sən,
Ətəyindən tök daşı sən,
Öz-özündən keçir insan!

Öz içini yu, təmizlə,
Çölünü içindən izlə,
Hələ dayan, hələ gözlə,
İçində var yüz cür insan!

***2009***

# Üzün qalsın

Hər nemətdən bir azca dad,
Arxasınca gözün qalsın.
Elə çalış, elə yarat,
Səndən sonra sözün qalsın!

Çatmasa göyə əllərin,
Qaçma dalınca yellərin,
Səndən sonra əməllərin,
Oğlun qalsın, qızın qalsın!

Yalvarıb bir ümidlə sən,
Sönən ocağı üfləsən,
Qəfil möcüzə gözləsən,
Kül altında közün qalsın!

Yığılanı puç etməyə,
Nə var vurub heç etməyə,
Bu dünyadan köç etməyə,
Yuyulmağa üzün qalsın!

***2009***

# Yaz olsada

Yerə vurub dizimizi,
Itirdi hər izimizi.
Saraldıb yol gözümüzü,
Ömrümüzdə yaz olsada!..

Atıb-tutduq beş-daşları,
Üzü dönük yoldaşları,
Yoxladıq biz sirdaşları,
Göz yaşımız duz olsada!..

Haram qatılsa izinə,
Gəlməz tərəzi gözünə,
Bu dünyanın o üzünə,
Min nəzir-niyaz olsada!..

Söz ki, var qurtaran deyil,
Udduğun qaytaran deyil,
Hər oxunan Quran deyil,
Bir gözəl avaz olsada!..

# Ələk

Ələdim bütün dostları,
Xəlbirin gözü yekəymiş,
Qohumları, qardaşları,
Neyləyim bəxtim beləymiş!

Endirən də, qaldıran da,
Qandıran da, sındıran da,
Bu qəlbimdə yandıran da,
O solğun şamı fələkmiş!

Məni kimin ahı tutdu,
Ağlayanın ruhu tutdu,
Yatmışdım yuxulu tutdu,
Bu dünya demə tələymiş?!

Bir quşun ki, bəxti qara,
Daş daşıyır divarlara,
Divarlar hara, o hara,
Daşıtdıran da kələkmiş!!!

***2007***

# Bu dünya öldürür məni

Gözlərimə baxa-baxa,
Bu dünya öldürür məni!
Bacarmıram onnan daha,
Bu dünya öldürür məni!

Gəldim bura dincəlməyə,
Dinc yaşayıb, dinc ölməyə,
Ağlımı çıxarıb göyə,
Bu dünya öldürür məni!

Seir ilahi nemətmiş,
Düzün qazancı töhmətmiş,
Ölümmü mənə qismətmiş,
Ya dünya öldürür məni?!

Ağlama, balam, ağlama,
Qiymət verən yox ağlıma,
Nəsiyyətim bu oğluma
Ki, dünya öldürür məni!

# Atalar düz deyib

Düz olan düzdə qalarmış,
Atalar düz deyib oğul!
Yıxılıb dizdə qalarmış,
Atalar düz deyib oğul!

Gəlib çatdım bu yaşıma,
Nələr gəlmədi başıma,
Dünya baxmaz göz yaşıma,
Atalar düz deyib oğul!

İməkləyən dizdən olar,
İz azdıran izdən olar,
"Eli sevən gözdən olar",
Atalar düz deyib oğul!

Çıxarsa öz ölçüsündən,
Düşər kərpic hörgüsündən,
"Keçmə namərd körpüsündən",
Atalar düz deyib oğul!

# İşıq adam

Son nəfəsdə üşüyən,
Ürəyimdir bir içim.
Bir sönmüş ulduz kimi,
Çəkir çölümü içim!

Baxıb mənə adamlar,
Məni tanımadılar,
İşığa dönür çölüm,
İşığa dönür içim!

Bu işığın içində,
Mənim bədənim hanı?!
Bu divarı keçəndə,
Qəbrim, kəfənim hanı?!

Şükür sənə, İlahi,
Mən də işıq adamam,
Nə filosof, nə dahi,
Səndəki işıqdanam!

# Ögey bəxt

Atam doğma, anam doğma,
Bəxtim ögey, bəxtim ögey!..
Kim mənimlə barışdırar
Məndən küsən bəxtimi hey!..

Baxıb mənə gülərsənmi,
Göz yaşımı silərsənmi,
Çəkdiyimi bilərsənmi,
Gəl bu mənim bəxtimi gey?!

Keçən fürsət düşməz ələ,
Hər nə qədər etsən belə,
Nə bir kəsə qarğış elə,
Nə də durub bəxtini söy!..

Ürəyimin tacı sınıq,
Qəribliyin acısıını,
Bir gün açar qapısını,
Üzümüzə bəxtini göy!!!

***2009***

# Nə isə

Ayaqlarım heydən düşüb,
Yollanır yenə nə isə...
Ürək hanı, ürək yoxdur,
Aldanır yenə nə isə...

Nədən belə son baharda,
Şirinləşir yuxular da,
Bu həsrətdən yanaqlarda,
Allanır yenə nə isə...

Baxıb güldüm dərd-sərimə,
İnanmadım gözlərimə,
Toxunmayın sözlərimə,
Hallanır yenə nə isə...

Qanımız coşub daşanda,
İstəyinə qovuşanda,
Dil danışmır alışanda,
Ballanır yenə  nə isə...

# Daha

Ağlım enən yerə balıqlar enməz,
Ağlım uçan yerə quş uçmaz daha.
Çıxıb cazibədən ölçüyə gəlməz,
Fikirlər, xəyallar qayıtmaz daha!

Sonu bir puç olan dünyanı neylər,
Bir yanı itirib, bir yanı neylər,
Ürəyim istəyir ilahi şeylər,
Ən gözəl şeirlər ovutmaz daha!

Suların üstündə gəzəni gördüm,
Havada quş kim süzəni gördüm,
Mən orda elə bir düzəni gördüm,
Yuxu gözlərimi uyutmaz daha!

***2008***

# Güzgü

*A. Axmatovaya*

"Kimdir bu güzgüdən baxan",
Bu üz mənim üzüm deyil?!
Solub qayğılı, yol çəkən,
Bu göz mənim gözüm deyil?!

Qazıb tökmüşəm özümü,
Yazıb tökmüşəm özümü,
Pozub tökmüşəm özümü,
Bu söz mənim sözüm deyil?!

Deyəsən burda olmuşam,
Bir zaman burda qalmışam,
Nəyi itirib, salmışam,
Bu iz mənim izim deyil?!

Nə tapmısan qazdığından,
Xatirələr tozluğundan,
Yuxu kimi yozduğundan,
Yuxun elə uzun deyil!!!

# Sındırın güzgüləri

Çəkdiyimiz yüklərin,
ağrısına acımır,
Yumaqdakı ip kimi,
həyat necə açılır.
Diyirlənir günlərin,
dalınca aylar gəlir,
Fikri uçurmaq üçün,
zaman necə gərilir,
yay kimi...
Sındırın güzgüləri,
həqiqəti gizlədir,
gün kimi, ay kimi!..
... işıqdan qaranlığa,
qaranlıqdan işığa,
görünən həqiqətin,
    güzgüləri görünməz!..
Yormayın gözünüzü,
sındırın güzgüləri,
    atın ayaq altına,
    qoy göy üzü görünsün!..
Əlin çatan güzgüdə,
göy üzü də görünməz,
    sındırın güzgüləri!..

# Sənsizlik

Sənsizlik nə böyük dərd imiş aman,
Səninlə olanda duymadım bunu.
Ah niyə duymadım, niyə o zaman,
Belə bir dərdin də mövcudluğunu!

Səadət yaxındı o zaman mənə,
Fəqət tez dəyişdi ömür yolunu,
Yelkənli qayıqda düşdüm tufana,
Bilmədən tufanın nə olduğunu!

Sərin yay gecəsi tale ulduzum,
Sənin ulduzunla qoşa parladı,
Axı hansı qüvvə, hansı cazibə,
Səni uzaqlara çəkib apardı?!

Çıxıram yenə də göyün seyrinə,
Göy üzü buludlu bayır sazaqdır,
O ulduz görünür göyün üzündə,
Fəqət, ulduzuma çox-çox uzaqdır!..

***1982***

# Səadət imiş

Uçdum sevinc üçün, səadət üçün,
Sən demə uçmaq da səadət imiş!
Talehin günaha yazacağından,
Dolanıb qaçmaq da səadət imiş!

Dünyada dünyadan qaçan adamlar,
Unudub günahı içən adamlar,
Çəkilib xəlvətə uçan adamlar,
Arzudan coşmaq da səadət imiş!

Göy kimi dənizin çök sinəsinə,
Qulaq as sularda pəri səsinə,
Özün dəniz ikən qum dənəsinə,
Könlünü açmaq da səadət imiş!

Uçdum sevic üçün, səadət üçün,
Uçdum sevgi üçün, məhəbbət üçün,
Saf duyğu, saf niyyət, ülviyyət üçün,
Şölə tək saçmaq da səadət imiş!..

# Unudulmaz röya

O yasəmən kolları,
ah ,o sırğayı güllər...
biri ağ, biri sarı,
bir də yuxuma girməz!..
O yaşıl böcəkləri,
qovub bizlərə sarı,
bir də külək gətirməz!
Kəpənək ölülərin,
qarışqalar daşıyar,
Nə qəribədir dünya,
özümüzü itirər,
izimizi itirməz!
Əldən çıxan günləri,
uçub gedən quş kimi,
bir də geri gətirməz!
Alnımızda qırışlar,
gözümüzdə bir ümid,
Söylə öz taleyini,
dəyişib hansı igid?!
Bu gerçəklik ya yuxu,
xəyalımdan silinməz?!
Dahilərin dühası,
zamanında bilinməz!..

# Əslinin düymələri

Məhəbbətin tilsiminə düşmüşəm,
Açılmadı düymələri Əslinin!
İndi bildim nə çəkmisən, ay Kərəm,
Açılmadı düymələri Əslinin!

Qara əllər aramızda kol oldu,
Aramızı vuran acı dil oldu,
Yazıq Kərəm əldən düşdü, yoruldu,
Açılmadı düymələri Əslinin!

Qovuşmayan ürəklərin yanğısı,
Yerin-göyün tükməyən ağrısı,
Nə hikmətdir qovuşmadı doğrusu,
Açılmadı düymələri Əslinin!

Bir eşq ilə bütün dünya gülərmiş,
Səcdə edib mehrabına gələrmiş,
Bir ah ilə yanıb külə dönərmiş,
Açılmadı düymələri Əslinin!!!

***1988***

# Hələ

Yuvası dağılmış qaranquş kimi,
Bu eşqim havada fırlanır hələ.
Atadan, anadan qarğanmış kimi,
Didərgin-didərgin dolanır hələ...

Uçur viran olmuş ömrün üzündə,
İlk eşqin havası nəmli gözündə,
Sevda yollarında dizin əzəndə,
Yaşıl budaqlarla qalanır hələ...

Bu da bir qismətdir, bir qoşa tale,
Nə başa acıyır, nə yaşa tale,
Toxunub sıldırım bir daşa tale,
Portur ürək kimi, tullanır hələ...

Bu sınıq qanadı kimdir səsləyir,
Bu sınmış qanadla uçmaq istəyir,
Quş kimi uçmağa ümid bəsləyir,
Boş-boş ümidlələ aldanır hələ...

# Ayrılaq

Payız alıb dağı-düzü,
Saralıb astarı-üzü,
Könlümün bu sevən gözü,
Kül edib ocaqda közü,
Bu söhbətdən biz ayrılaq!

Ulduzları görəmmədik,
İşığına bələnmədik,
Sevildik, ya sevəmmədik,
Qiymətini biləmmədik,
Səadətdən biz ayrılaq!

Dolu dəymiş ağac kimi,
Qurumuş qarağac kimi,
Təndirindən qaxac kimi,
Həm doymuş, həm də ac kimi,
Məhəbbətdən biz ayrılaq!

Nisgili az xiffət elə,
Nə  dərd, nə də möhnət elə,
Ürəyini göynət elə,
Sevdiyinə nifrət elə,
Bu nifrətdən biz ayrılaq!

# Saxlayarmısan

Bu ayrılıq gülünü
Alıb qoxlayarmısan?!
Atdığın ox qırılıb,
Bir də oxlayarmısan?!

Axıb gözünə dolsam,
Girib könlünü alsam,
Bir varaq şeir olsam,
Məni oxuyarmısan?!

Könlüm oruc sevgiyə,
Qalsın məktublar niyə,
Kül olub yansın deyə,
Atıb odlayarmısan?!

Mənə acı dilini,
Kitablarda gülümü,
Bu sevginin külünü,
Gizli saxlayarmısan?!

# Bu bahar

Bu bahar bəxtimin gün düşən yeri,
Gözündən yayınıb göz ucu qədər,
Bu bəxtsiz sevgimin görüşən yeri,
Bu bahar axşamı eşitdi nələr!..

Bu bahar sevgidən bir ürək doyub,
Bu bahar bir yaşıl gecə qalmayıb,
Bu bahar bir qıza nə isə olub,
Dönüb qayıtmağa bir yol qoymayıb!

Bu bahar öldürüb səni özündə,
... bir şeyi nə qədər eşitmək olar?!
Enib, adiləşib hər şey gözündə,
Günahkar axtarma özünü axtar!

Bu bahar sevgidən oxuyur elə,
Bu bahar sevgimə dar ağacıdır...
Yetim bənövşələr qoxuyur elə
Qərib taleyimə qəlbim acıdı...

# Bu yaz axşamı

Gözlərin əlini qoynuna qoyub,
Gözləyir bir yazmı, bu yaz axşamı?!
Həsrətdən ürəyim könlümü soyub,
De görüm bu azmı, bu yaz axşamı?!

Bu bahar dünyanın pöhrəliyindən,
Bu budaq baharın körpəliyindən,
Bu pöhrə yarpağın titrədiyindən,
Söyləyir ayazmı bu yaz axşamı?!

Küləklər saçımı yolar, soruşar,
Göylərin gözləri dolar, soruşar,
Səpilər üzümə isti yağışlar,
Ağlayan o qızmı, ya yaz axşamı?!

Əllərin boynumda yatırsan niyə,
Min fikrə, xəyala batırsan, niyə,
Hər şeyin sonuna çatırsan, niyə,
Dərinmi, dayazmı, bu yaz axşamı?!

# Olanda

Heç qoymazdım ağlayasan,
Əlim yaylığın olanda!
Bəxtə ümid bağlayasan,
Əli-ayağı olanda!

Gözlə gedib çatmaq olmaz,
Bəxt oyaqkən yatmaq olmaz,
Ümid varkən batmaq olmaz,
Sevgi qayığın olanda!

Başqasının yükü ki, var,
Alıb daşımağa nə var,
Söylə yaşamağa nə var,
Allah dayağın olanda?!

Yazılanı pozmaq olmaz,
Nə yuxudur yozmaq olmaz,
Eşq dənizdir azmaq olmaz,
Vüsal mayağın olanda!

# Görən

Kim ayırdı bizi-bizdən,
Bizi kim ayırdı görən?!
Biz ki, eşqə təşnə idik,
Bizi kim doyurdu görən?!

Kim öpdü soyuq yanaqdan,
Kim aldı canı dodaqdan,
Zülm ilə əti dırnaqdan,
Gülüm, kim sıyırdı görən?!

Bağrımın başı sökülən,
Gözümün yaşı əkilən,
Dizimin qanı tökülən,
O daşlar göyərdi görən?!

Dalıb yenə xəyaldadır,
Fələklə qeylü-qaldadır,
Allah bilir nə haldadır,
Nədir bunun dərdi görən?!

# Xoşuna gəlməz

Könül, uçurumlar üstə gəzməyən,
Taleyin amansız tuşına gəlməz!
Bir ürək duymayıb, çiçək üzməyən,
Bir sevda, məhəbbət başına gəlməz!

Günlər hədərdirsə, ömür bəhərdir,
Çölü sevincdirsə, içi kədərdir.
Səadət, xoşbəxtlik gəldi-gedərdir,
Ömrümün sayılan yaşına gəlməz!

Soyuğu dağlarda qardan biləsən,
Eşqini anlayan yardan biləsən,
Mənim çəkdiyimi hardan biləsən,
Yatsan da heç sənin huşuna gəlməz!

Yaşamaq istəyən,  gülmək istəyən,
Sevilmək istəyən, sevmək istəyən,
Hamının xoşuna gəlmək istəyən,
Axırda heç kimin xoşuna gəlməz!

# Bu ömrümə

Bircə damla yağış gəzdim,
torpaq kimi bu ömrümə...
Budağımdan qırılmışam,
yarpaq kimi bu ömrümə...

Budaqları qurumamış,
arzuları qarımamış,
bir təmasdan yarımamış,
dodaq kimi bu ömrümə...

Anlayan itirər ağlı,
tapılmaz bir insan oğlu,
qapısı-bacası bağlı,
otaq kimi bu ömrümə...

Vurub sındırdım dizimi,
tapdım içimdə dözümü,
qapadım, yumdum, gözümü,
qapaq kimi bu ömrümə...

# Möcüzə

Bir gün gəlib görsən, bu dünya yoxdur,
Hər şey bir sehirli güzgü kimidir.
Ağaclar, bu torpaq, bu səma yoxdur,
Hər şey tərsinədir, özgə kimidir!

Baxsan o güzgüyə dünyanı görsən,
Götürüb güzgüdən özünü silsən,
Yenicə on altı yaşına girsən,
Nəyi sevdiyini hardan bilərsən?!

Toxunsa dünyaya dünyanın əksi,
Bircə an içində yox olsa hər şey,
O iki dünyadan əkizlər kimi,
Bir anın içində yaransa hər şey...

Zikr ilə işlətsən yatan beynini,
Ağaclar, daşlar da sözünə baxar,
Heç nə saxlayammaz sənin əynini,
Divarı keçərək o yana çıxar!

Kim bilir Allahın işini axı,
İnsan dərk eləmir sonsuzluq nədir?!
Beynin tamamilə işləyən vaxtı,
Kainat dağılmış "kiçik zərrədir"!!!

# Qara sevda

Silinməz eşqin yarası,
Yaranın üstə çıxmazlar.
Yamandı bəxtin qarası,
Gecə güzgüyə baxmazlar!

Bu ömürdür yazı deyil,
Göy üzünün tozu deyil,
Hər mələyən quzu deyil,
Ürəyi bunca sıxmazlar!

Mələklərin ağ qanadın,
Yonulan görüb ağladın,
Gözündə qalsa muradın,
Sevgini başa qaxmazlar!

Onsuz düzələn deyiləm,
Qədrını bilən deyiləm.
Bu dünyada bir bəxti kəm,
Bəxti qaranı yıxmazlar!

# Pərişanım

Ətirli reyhanım mənim,
Ruhumun qidası gülüm,
Qaragöz ceyranım mənim,
Başımın bəlası gülüm!

Səni qəmə tuş görəndə,
Gözlərində yaş görəndə,
Bir günahkar iş görəndə,
Çıxar bir xətası gülüm!

Bir duam var dan yerinə,
Sübhün gülüstan yerinə,
Gözüm qurban gözlərinə,
Eşqimin butası gülüm!

Mələksən göydən enməzsən,
Gülümsərsən, sevinməzsən,
Mən bilirəm, sən bilməzsən,
Gözəllərin xası gülüm!

# Gəncliyim

Nə əbədi etibarsız dünyada
Səni sora-sora getdi gəncliyim?!
Barı bir yol salırsanmı de yada
Bir gül idi xara getdi gəncliyim!..

Külək idi, yağış idi, bilmirəm,
Bir alovlu baxış idi, bilmirəm,
O gedəli sevinmirəm, gülmürəm,
Hardan gəldi, hara getdi gəncliyim?!

Bir çiçəkdi, soldu getdi, qurudu,
Bir göz idi, doldu getdi, qurudu,
Nə arzudan, nə diləkdən yarıdı,
Yaşanmamış, para getdi gəncliyim...

Bir yaz günü mən göz açıb yumunca,
Küləkləri saçlarımı yolunca,
Axtarıram, gözüm qaldı dalınca,
Ürəyində yara getdi gəncliyim...

# Ağaclar payızda çiçəkləyəndə

Amandır, payızda çiçəkləməsin,
Bahar çiçəyini itirən ağac.
Baharın dərdini payız çəkməsin,
Payız çiçəyindən olarmı əlac?!

Ağaclar payızda çiçəkləyəndə,
Yuxusu qarışar gözəl bir qızın,
Bir sevgi, bir arzu daşa dəyəndə,
Qəbrini xəzəllər içində qazın!

Göylərin gözləri dolur hər axşam,
Ağlayır saralan gülə, yarpağa,
Nə xeyri, nə qədər qəlbimi sıxsam,
Saralan o günlər "durmaz ayağa"!

Əsir ömrümüzün payız havası,
Bu ömürə yuxudan diksinməyəcək,
Köçəri quşların soyuq yuvası,
Gələn baharadək isinməyəcək!..

# Ölsəm bağışlama

Deyirlər: "çox çəkər çox bilən insan"
Gülüm, ya ağlayım bildiyim üçün?
Sevinsin qoy vətən, birdəki anam,
Şairtək dünyaya gəldiyim üçün**..**

Hicran qəm tütüəyin sıxdı qəlbimə,
Küləklər at çapan ahdı qəlbimə,
O vaxtdan göz yaşım axdı qəlbimə,
Gözümün yaşını sildiyim üçün...

Gülüm şair səni çətin yarıda,
Balıq da çırpınar bulanıq suda...
Ömür yollarında qoyub yarıda,
Ölsəm... bağışlama öldüyüm üçün!..

# Qaçıram

Ayağım yer tutan gündən,
Şərin əlindən qaçıram!
Düşmənin xoş qılığından,
Şirin dilindən qaçıram!

Qəbrim üstə gül qoymayın,
Çiçəkləri soldurmayın,
Çığırtısına qıymayım,
Səsin zilindən qaçıram!

Çiynimdə bir mələk ağlar,
Yaramı əlıylə bağlar,
Bilirəm ki, məni boğar,
Gözün selindən qaçıram!

Söz ki, düşəndə ayağa,
Göürüb atdım ocağa,
Külək qovur sola-sağa,
Sözün külündən qaçıram!

# Məndən sonra...

Məndən sonra bir dərd qalar,
Mənim dərdimi çəkməyə!
Bir ovuc torpaq gətirər,
Qərib qəbrimə tökməyə!

Məzarıma baxar solar,
Bənövşələr çıxar solar,
Məndən sonra axar sular,
Gedər dənizə çökməyə!

Məndən sonra bir ümidin,
Uman yeri olar çətin,
Könlünü almaq istədin,
Bir göz yaşına bükməyə!

Yarpağı yox, bir gülü yox,
Budağında bülbülü yox,
Məndən sonra bir dəli yox,
Bir quru budaq əkməyə!

***2009***

# Axtarır

Düşüb həqiqətin sorağı ilə,
Onu bu həyatda kor da axtarır!
O, Nurun nurudur çırağı ilə,
Nuru yaradanı nur da axtarır!

Vallah, bu dünyanın toy olan vaxtı,
Günəş olan vaxtı, Ay olan vaxtı,
Bu düşüb itmişə tay olan baxtı,
Küləklər çovğunda, qarda axtarır!

Sağı dəyişdirib sola yazdılar,
Günahı, xətanı qula yazdılar,
Torpağın dərdini elə yazdılar,
Çoxları günahı barda axtarır!

Kölgəsi köç edən bəy ərənləri,
Yerlərə sığmayan göy ərənləri,
Yerində daş kimi göyərənləri,
Yurdun igidləri darda axtarır!

# Qorxuram

Baxıb köks ötürmə mənə,
Bir yanıq ahdan qorxuram!
Günahlarım sabahdasa,
Gələn sabahdan qorxuram!

Ötən günlərə enirəm,
Dərdlərimə isinirəm,
Ya qəfildən diksinirəm,
Ya da ki, gahdan qorxuram!

Gedər bu bədən qorxmuram,
Bildiyim gələn qorxmuram,
Yerdə bəndədən qorxmuram,
Uca Allahdan qorxuram!

Yazılan hər şey dövrəsə,
Hər yerdə hər şey növbəsə,
Günahı yuyan tövbəsə,
Dönən günahdan qorxuram!

# Son nəfəs

İçimə çəkdiyim bu son nəfəsi,
Tutub ciyərlərim son ümid kimi.
Təşnə qumsallıqlar ölən həvəsi,
Gözləyir içində bir bulud kimi...

Yanıb ciyərimdə sonuncu nəfəs,
Nə qədər qəlbimi döyündürəcək,
Bir dünya havanın bir udumu bəs,
Sonunda səni də sevindirəcək?!

Partlayıb ürəyim dağıla bilər,
İçimdə ağrıyan bu son nəfəsdə,
İçim öz qanında boğula bilər,
Yorğun qollarımda qalmaz həvəs də...

Bu sonuncu nəfəs, sonuncu quşdur,
Çıxıb qəfəsindən uçmaq istəyir,
Bəlkə duyuq düşüb bu son uçuşdur,
Mənə ürəyini açmaq, istəyir!..

# Burdan o yana

Qəza-qədər bura qədər,
Burdan o yana başqadır!..
Gül-çiçəklər burda bitər,
Burda solar, burda itər,
Burdan o yana gecələr,
Uzun-uzun yaddaşdadır!..

Nə bir səmir, nə bir səda,
Tənhalıqdır yetən dada,
Keçən günlər düşməz yada,
Dünya atlı, sən piyada,
Çapıb çıxıb gedər o da,
Görərsən ki, uzaqdadır!

Qızılgüllər dəstə-dəstə,
Gəlib düşər qəbrin üstə,
Kimi dahi, kimi xəstə,
Ümid ölmür son nəfəsdə,
Günahkar bir sözün üstə,
Ötüb keçənlər daşladı!..

Səbr elədim, dözdüm durdum,
Nə var səbirdən o yana?!
Ümidsiz zamanı qırdım,
Bəlkə yatanlar oyana!
Qəza-qədər bura qədər,
Burdan o yana başqadır!!!

# Yarpaq

Uça- uça düşən yarpaq,
Hər şeyi zaman aparır.
Su üzündə üzən yarpaq,
Səni bir güman aparır!

Nə var o getdiyin yerdə,
Yarpaq olarsanmı bir də!
Doğrayır qolumu gürzə,
Əllərimi qan aparır!

Nə var zamandan o yana,
Nə var məkandan o yana,
Qalın dumandan o yana,
Məni o yaman aparır!

Hər şey nisbi, hər şey kölgə,
Var olanlar yoxdur bəlkə?!
Bir taleyi neçə döngə,
Sularda saman aparır!

# Dəyməz

Fikirləşsən dərin-dərin,
Heç üzə çıxmağa dəyməz!
Ömür bir an, bir qığılcım,
Gurlayıb çaxmağa dəyməz!

Dolanıb kəndin, şəhərin,
Coşub eşqiylə səhərin,
İç şərbətin, düşün dərin,
Dünyaya baxmağa dəyməz!

Ağıllılar fikirləşsə,
Ağıldan bəlaya düşsə,
Dəliləri çayı keçsə,
Qəlbini sıxmağa dəyməz!

Haqqa tərəf gəlmisənsə,
Haqqı adil bilmisənsə,
Ağlar gözü silmisənsə,
Ölümdən qorxmağa dəyməz!

# Gəlin olmaz.

Yatma qapını döyərlər,
Açmağa bir əlin olmaz!
Yaşasan dünya içində,
Ayrı ayın, ilin olmaz!

Yol açmğa çalış min yol,
Qoy uzansın öz içın yol,
Çalış hər sözdə içın ol,
Söz deməyə dilin olmaz!

Bir udumdur gecə-gündüz,
Ütüləsən olar düm-düz,
Gecə yarı axan ulduz,
Əllərində gülün olmaz!

Ürəyini açan qızdan,
Hər qoşulub qaçan qızdan,
Göydə parlayan ulduzdan,
Bu gecəyə gəlin olmaz!

# Məni

Bu qollarım kəndir kimi,
Çəkib suda boğar məni.
Allah, görən uşaq ollam,
Anam bir də doğar məni?!

Nə qalıb ki, qiyamətə,
Torpaq dönər sümük-ətə,
Qismətim varsa cənnətə,
Allah belə yığar məni!

Acı dildən badam olmaz,
Lap min il də yatam olmaz,
Məndən daha adam olmaz,
Siyahıdan çıxar məni!

Neyləyirəm yazı-qışı,
Hamının qarışıb başı,
Axar gözlərinin yaşı,
İçin-için yıxar məni!

# Bağışla

Bu uğursuz illərimdən,
Bu sovqatsız əllərimdən,
Allah, necə utanıram,
Odsuz, alovsuz yanıram,
Bağışla, anam, bağışla!

Baxıb ötən bu yaşıma,
Köhnə-küləş üst-başıma,
Sən Allah çıxma qarşıma,
Eybimi vurma başıma,
Bağışla, sonam, bağışla!

Hikmət var hər ağacında,
Sallanıb nar ağacında,
Uzanıb gecə uzunu,
Tapammadım payızını,
Bağışla, durnam, bağışla!

Hər ağrında, hər acında,
Yellənib dar ağacında,
Sona çatmamış ömürlər,
Vaxtsız torpağa gömülər,
Bağışla, dünyam, bağışla!

***1987***

# Oxşayır

Bu dünyanın ağacları,
Biri-birinə oxşayır!
Meyvələrin içindəki,
Tumun sirrinə oxşayır!

Mənə ilham verən mələk,
Qanadların yaman kövrək,
Üz-gözümü əsən külək,
Sənin yerinə oxşayır!

Böyüyərəm, boy ataram,
Yatan dalğayla yataram,
Qorxuram gedib bataram,
Yaman dərinə oxşayır!

Bu dünyayla kəsdin kəbin,
Yanmış qazan kimi dibin,
Dəvəsi ölmüş ərəbin,
Ölən nərinə oxşayır!

***2009***

# Yığa bilər

Üfürüb içdiyin su da,
Bir gün səni boğa bilər!
Susuz kül olan səhraya,
Gürşad yağış yağa bilər!

Yıxılanı yıxan gücü,
Qalxanı düşən döyüşçü,
Torpağa dirənən cütçü,
Çanaqsız tısbağa bilər!

Ruzisi itmiş acın da,
Qisməti nizə ucunda,
Tapsa nə qalıb ovcunda,
Gözün yuman çağa bilər!

Bir pöhrədə yaşatdığın,
Bir yarpaqda saraltdığın,
Bir heç nədən yaratdığın,
Bir heç nəyə yığa bilər !!!

# Gözümün içinə bax

Qəlbimin boşluğunda,
ən ağır dərdlərimi
tərpədirəm, ilahi.
Gözüm güzgü olandan,
bütün gördüklərimi,
görsədirəm,ilahi.
Uçurumlar qanadlı,
uçurur fikirləri,
fikir ilə görürəm,
görmədiyim yerləri.
Bu gözsüz gördüklərim,
Səslərin rəngi kimi,
Hər rəngin öz tamı var.
Nurun içində dərin,
Hər camın öz camı var!

Bir tumun içindədir,
Bir ağacın kölgəsi,
Bir tumun içindədir,
Bir ağaclar ölkəsi.
Bir ağacın içində,
Milyon-milyon tumu var,
Gözümün içinə bax,
Özünü görmək üçün,
Gözünü görmək üçün,
Yenə, yenə, yenə bax!..

# Gələr

Ha tərəfə çevirsən,
Haqq başı ağır gələr!
Haqqa dayaq dayansan,
Üstünə uğur gələr!

Elə bilmə təkcəsən,
Yük altında tər tökən,
Öz yükünü tək çəkən,
Yüklənib fağır gələr!

Ürəyi dəniz olan,
Damla-damla sızılan,
Mayası təmiz olan,
Xəmiri yoğur, gələr!

Yolun haqqa tərəfsə,
Haqq bir nazilən ipsə,
Səni sınağa çəksə,
Allahı çağır, gələr!!!

# Yetimxana uşaqları

Böyüdülər yetim-yetim,
Yetimxana uşaqları.
Ağrısıdır cəmiyyətin,
Yetimxana uşaqları!

Ağlar gördüm gözlərini,
Qərib gördüm izlərini,
Sındırmadı özlərini,
Yetimxana uşaqları!

Hansı pisdir:- yetim qalmaq,
Tükənib ya bitib qalmaq,
Düz dünyada itib qalmaq,
Yetimxana uşaqları?!

Böyüdünüz, boy atdınız,
Bir arzunu ucaltdınız,
Bir ürəyi qocaltdınız,
Yetimxana uşaqları!

# Gözləyir məni

Ümidim var su üzündə,
Ağ taxtım gözləyir məni.
Qara günlərin içində,
Ağ baxtım gözləyir məni.

Min rəngim var göy üzündə,
Hər rəngin  dadı özündə,
Hər rəngli səsin izində,
Ağ vaxtım gözləyir məni.

Boyumu məkana biçsəm,
Zamandan-zamana keçsəm,
Su olub dumana köçsəm,
Dağ vaxtım gözləyir məni.

Külü sovrulan ocaqlar,
Külünü külək qucaqlar.
Yadıma düşür o çağlar,
Bir addım gözləyir məni.

# Bir şair boğazı var

Haqqın ağır yolunda,
Çox nəzir-niyazı var!
Şəhadətə yetişən,
Şəhidi var, qazi var!

Yağışın üşütdüyü,
Günəşin dişərtdiyi,
Aldadıb cücərtdiyi,
Payızı var, yazı var!

Sinəsi dağlı tutun,
Gözünün yaşın tutun,
Qaralı-ağlı tutun,
Həm pazı, həm sazı var!

Qurdu itlər yeyəndə,
Baxıb düşündüm mən də,
"Hər sözün hilgəyində,
Bir şair boğazı var!"

# Olsan

Yem axtaran balıq kimi,
Bir tilovu didər olsan,
Tamahının güdazına,
Diyirlənib gedər olsan...

Uşaq tək oynayıb odla,
Işin yox qohumla, yadla,
Bir ilanın dişi altda,
Qana həris zəhər olsan...

Günün göy əskiyə büküb,
Isa tək çarmıxa çəkib,
Bir məsumun qanın töküb,
Bədəlini ödər olsan...

Dönüb geriyə baxanda,
Ümidin boşa çıxanda,
Boşluq qəlbini sıxanda,
Neyləyərsən hədər olsan?!

# Ağrıdar

Ürəyim çəkdiyindirsə,
Gözünün yaşın ağrıdar.
Evimi tikdiyindirsə,
Atdığı daşın ağrıdar!

Canımdakı bu nə kirdir,
Ovulub çıxan fikirdir,
Açılmayan o nə sirrdir,
Çıxıb sirdaşın ağrıdar?!

Yorulmadı axan sular,
Yoruldu yolda yorğalar,
Dəmir kimi bic buğdalar,
Dəyirman daşın ağrıdar!

Yerində dayanıb göylər,
Gedənlərə vida eylər,
Dəyirman bildiyin eylər,
Çax-çaxı başın ağrıdar!

# Kəsdilər

Körpə-körpə quzuları,
Soyuna qurban kəsdilər!
Boy atasan, böyüyəsən,
Boyuna qurban kəsdilər!

Kəsdilər gecə-gündüzü,
Gördülər neçə min üzü,
O gecə bir ağlar gözü,
Toyuna qurban kəsdilər!

O torpaqda qalanların,
Ehsan üçün ölənlərin,
Sağ-salamt gələnlərin,
Sayına qurban kəsdilər!

Şəhid oğluna, qızına
Ağlayan telli sazına,
Bayrağında ulduzuna
Ayına qurban kəsdilər!

***2008***

# Çıxarır

Hər yaxşını-yamanı,
Zaman çıxarır üzə.
Indi suda batanı,
Saman çıxarır üzə...

Sözün dəyərsizliyin,
Aşkarlıqla gizləyin,
Hökmün kəsərsizliyin,
Fərman çıxarır üzə...

Qeylü-qallı başımla,
Baharımla, qışımla,
Məni cavan yaşımla,
Güman çıxarır üzə!

Ulu göydən gələn daş,
Gah dua, gah da qarğış,
Budaq-budaq qurumuş,
İnsan çıxarır üzə!

***1989***

# Yuxuma

Yenə yuxudayam, gözləri açıq,
Gəlir çağrılmamış qonaq yuxuma!
Bağlasam dağılar kipriklərimi,
Sanki dayanıblar dayaq yuxuma!

Qar yağır üşüyür əlim-ayağım,
Sürüşür buz üstə yerim-yatağım,
Dediyim sözləri tutmur dodağım,
Gəzirəm bir isti otaq yuxuma!

İndi qurşağadək çıxan bu qarda,
Mən özüm hardayam, izlərim harda,
Yenə silkələnir sırsıralarda,
Üstünə qar yağmış budaq yuxuma!

Kaş ki, unudanlar özünü görsün,
Bu qarın altında izini görsün,
Yuxum açıq qalan gözünü görsün,
Əl boyda bir güzgü tutaq yuxuma!

# Əlli yaşıma

Gəlib çıxdım əlli yaşa,
Kədərlə verib baş-başa!
Əlli bahar, əlli qışa,
İzim qarışa-qarışa!

Ömür deyilən buydusa,
Yarsı vay, yarısı toydusa,
Qəlbindən keçən odursa,
Küsər, barışa-barışa!

Ümidlərim param-parça,
Gedir bağlanıb uc-uca,
Yol boyunca qaça-qaça,
Məni soruşa-soruşa!...

Yalnızlığım, tənhalığım,
Həyatıma atır lağım,
Solub gedir ömür bağım,
Üzüm qırışa-qırışa!..

# İlğım

İlğımdır səhrada görünən hər şey,
Gedərsən, getdikcə... su tapanmazsan,
Nə qədər gözündə qurumayıb yaş,
Ölən ümidləri yu, tapanmazsan!!!

İlğımdı dünyada görünən hər şey,
Bu gün görünsə də, sabah yox olar.
Acından ölənlər eyləyər giley,
Qəfil yuxu tutar... yeyər tox ölər!..

Gəzər gün boyunca oruc adamlar,
Bir iftar süfrəsi qarın doyurar
Çoxu elə sanar ki,oruc tutar,
Amma... çoxuna da ac qalmaq qalar!..

Haqqın kövsərinə uzanar əli,
Yanar ciyər kimi təşnəli suya,
Bir qurtum su istər... ölən hər ölü,
O da ki, ya qismət ola olmaya?!.

# Sözün ocağına

Toplama sözün suyunu,
Köpüklənmiş dodağına ...
"Çıxarma sözün ağını",
Pıçıldadım qulağına...

Atıb gizlətmə yayını,
Çıxarma sözlə oyunu,
Tökən üzünün suyunu,
Düşər sözün ayağına...

Söz var şüşə, söz var almaz,
Söz var min il keçər solmaz,
Hər tikilən bina qalmaz,
Söz zirvəsi, söz dağına!..

Açdı mənə qucağını,
Tilsimlənmiş otağını,
Toplayıb sözün yağını,
Tökdüm sözün ocağına!..

# Nə mənası var

Kim dəyişdirib ki, alın yazısın,
Seçsən ya seçməsən nə mənası var?!
Qaçdığın əcəldir, qarşında uçrum,
Qaçsan ya qaçmasan nə mənası var?!

Sən də yem axtaran quş kimi olsan,
Bir əmrə müntəzir daş kimi olsan,
Haqdan havalanan baş kimi olsan,
Uçsan ya uçmasan nə mənası var?!

Axtarsan min illik qırılmış ipi,
Yellənsə köksündə baltanın sapı,
Dayansa qarşında qırxıncı qapı,
Açsan ya açmasan nə mənası var?!

İçin çirkab olsa ha çim, ha yuyun,
Nəfsinin mənəmlik sırtını soyun,
Deyək ki, tapmısan dirilik suyun,
İçsən ya içməsən nə mənası var?!

# MÜNDƏRİCAT

**Şeir – ürəyin işığıdır** ........................................3
Ulu ocaq ........................................................12
Vətən ............................................................14
Şuşa ..............................................................15
Xocalı qırğını...................................................17
Masallı ............................................................19
Göyçə.............................................................21
Savalan ..........................................................23
O yerlərə gedəcəm..........................................25
Bir ucdan ........................................................26
Götürmə məni.................................................27
Tarix ..............................................................29
Moskva gecələri..............................................31
İstanbul gözəli ................................................32
Köçür..............................................................34
Yoxdur............................................................35
Hicrət..............................................................36
Ağlayar dirimiz...............................................37
Şükür .............................................................38
Uşaqlıq çağım.................................................39
Həyatın dibində ..............................................40
Yataqxanada ...................................................41
Yolların başında..............................................42
Qırdım ............................................................44
Arxamca atılan su ...........................................45
Gedir...............................................................46
Bir yol vardı....................................................47

Dönür.........................................................48
Hər gün .......................................................49
Olmadı .......................................................50
Olsada.........................................................51
Yıxılır .........................................................52
Darıxdım.....................................................53
Yuxu ...........................................................54
Çəkdiyim ....................................................55
Vaxtımız yox ..............................................56
Boğuluram ..................................................58
Şikəst quş....................................................60
Nağıl ...........................................................61
Dua nədir ....................................................62
Biri yox.......................................................63
Şairlər ölmür...............................................64
Daşın dili var ..............................................66
Sökə bilim...................................................67
Sən bir sözsən..............................................68
Danışan adam ..............................................70
Adam ...........................................................71
Bayraq .........................................................72
Aparır...........................................................73
Kimi.............................................................74
Gördüklərim ................................................75
Balaca qadın ................................................76
Tapmadın.....................................................77
İnsan ............................................................78
Üzün qalsın..................................................79
Yaz olsada ...................................................80

Ələk ........................................................81
Bu dünya öldürür məni ......................................82
Atalar düz deyib ..............................................83
İşıq adam .........................................................84
Ögey bəxt .........................................................85
Nə isə...............................................................86
Daha ................................................................87
Güzgü ..............................................................88
Sındırın güzgüləri .............................................89
Sənsizlik ..........................................................90
Səadət imiş ......................................................91
Unudulmaz röya ...............................................92
Əslinin düymələri ..............................................93
Hələ .................................................................94
Ayrılaq..............................................................95
Saxlayarmısan...................................................96
Bu bahar ..........................................................97
Bu yaz axşamı...................................................98
Olanda .............................................................99
Görən...............................................................100
Xoşuna gəlməz .................................................101
Bu ömrümə.......................................................102
Möcüzə............................................................103
Qara sevda .......................................................105
Pərişanım.........................................................106
Gəncliyim .........................................................107
Ağaclar payızda çiçəkləyəndə ..........................108
Ölsəm bağışlama ..............................................109
Qaçıram ...........................................................110

Məndən sonra... ....................................................111
Axtarır ..............................................................112
Qorxuram............................................................113
Son nəfəs ...........................................................114
Burdan o yana.....................................................115
Yarpaq ..............................................................117
Dəyməz..............................................................118
Gəlin olmaz. .......................................................119
Məni .................................................................120
Bağışla ..............................................................121
Oxşayır .............................................................123
Yığa bilər............................................................124
Gözümün içinə bax...............................................125
Gələr .................................................................127
Yetimxana uşaqları...............................................128
Gözləyir məni .....................................................129
Bir şair boğazı var ...............................................130
Olsan.................................................................131
Ağrıdar..............................................................132
Kəsdilər .............................................................133
Çıxarır...............................................................134
Yuxuma .............................................................135
Əlli yaşıma .........................................................136
İlğım .................................................................137
Sözün ocağına......................................................138
Nə mənası var......................................................139

**Xaqani AYXAN**

**Ağaclar payızda çiçəkləyəndə**

**Bakı - "Red N Line" – 2021, 144 səh.**

**Dizayner: Ramiz Əbilov**

**Çapa imzalanmışdır: 13.12.2021**
**Format: 60x84 1/32**
**Tiraj: 300**



Abuşov Xaqani (Ayxan) 1965-ci ildə Masallı rayonunun Böyük Xocavar kəndində anadan olmuşdur. 1987-93-cü illərdə Azərbaycan Neft və Kimya İnstitutunu bitirmişdir. İnstitutda oxuduğu müddətdə institutun "Təfəkkür" qəzetində şeirləri dərc olunmuşdur. Sumqayıtdakı Əli Kərim adına "Poeziya Klubu"nun dərnəklərində mütəmadi iştirak etmiş və 1988-ci ildən üzvlüyə seçilmişdir. İxtisasca mühəndis mexanik olmasına baxmayaraq atası Daxıl müəllimin Azərbaycan dili və ədəbiyyatını gözəl tədris etməsi onda ədəbiyyata maraq oyatmışdır. İlk dəfə 1983-cü ildə Sumqayıtda işlədiyi Üzvi Sintez zavodunun "Sintez" qəzetində "Sənsizlik" şeiri dərc olunmuşdur. Dövri mətbuatda dərc olunmağa 1993-cü ildə "Yol" ədəbiyyat qəzetində başlamışdır. Azərbaycanda demək olar ki, əksər qəzet və jurnallarda şeirləri dərc olunmuşdur. Hətta respublikadan kənarda Tatarıstan Respublikasının Kazan şəhərində Azərbaycan diasporasınının nəşr etdiyi "Odlar Yurdu" qəzetində də şeirləri dərc olunmuşdur. Sumqayıt şəhərində yaşayır, evlidir üç övlad atasıdır, Karbamid zavodunda işləyir.